# Dini konfessiyaların nümayəndələri Suqovuşan və Talışdakı alban məbədlərini ziyarət ediblər





**Ölkəmizdə fəaliyyət göstərən dini konfessiyaların nümayəndələri Ermənistanın işğalından azad edilən Suqovuşan qəsəbəsində və Talış kəndində səfərdə olublar. Səfər Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə reallaşıb.**

AZƏRTAC xəbər verir ki, dini konfessiyaların nümayəndələri Pasxa bayramı münasibətilə Suqovuşan qəsəbəsindəki və Talış kəndindəki alban məbədlərini ziyarət ediblər. Dini ayinlər icra olunub, bayram duaları oxunub. Talış kəndindəki məbədin həyətində bayram süfrəsi açılıb. Süfrəyə kuliç və digər bayram nemətləri düzülüb, mahnılar ifa olunub. Tolerantlığın bariz nümunəsi olaraq xristianlarla yanaşı, müsəlmanlar da bayram tədbirində iştirak ediblər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov AZƏRTAC-a müsahibəsində deyib: "Bu gün dini konfessiyaların, icmaların üzvlərinin iştirakı ilə Pasxa bayramı ərəfəsində birlikdə olmağımız bir daha Azərbaycandakı dini həmrəyliyin, dini harmoniyanın bariz nümunəsidir. Bu, Azərbaycanda həyat tərzidir. Azərbaycanda fəaliyyətdə olan bütün dini konfessiyaların nümayəndələri bir ailə kimi yaşayır. Bu, bizim milli sərvətimizdir. Bizim hamımızın qarşısında duran başlıca vəzifə bu milli sərvəti qorumaq, daha da gücləndirmək və gənc nəslə ötürməkdir. Azərbaycan bu həmrəylik, birlik nümunəsi ilə dünyaya sülh modeli təqdim edir".

Azərbaycan.- 2024.- 4 may, № 91.- S.5.